DÖVLƏT VERGİ XİDMƏTİ

# Elektron kabinetə daxil olmaq üçün yalnız bu şəxslər kod-paroldan istifadə edə bilərlər!

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən 01.01.2025-ci il tarixdən etibarən**

Dövlət Vergi Xidmətinin informasiya sistemində yaradılan elektron kabinetə gücləndirilmiş elektron imza ilə yanaşı yalnız aşağıda qeyd olunan şəxslər vergi orqanı tərəfindən verilən kod-parol ilə də daxil ola bilərlər:

- ƏDV məqsədləri üçün qeydiyyata alınmamış, mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin daşımalarını (o cümlədən taksi ilə) həyata keçirən şəxslər;
- işçi cəlb edilmədən fərdi qaydada aşağıdakı fəaliyyət ilə məşğul olan fiziki şəxslər:

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

- toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət
- fərdi foto, audio-video xidmətləri (fotostudiyalar istisna olmaqla) sahəsində fəaliyyət
- çəkməçi, pinəçi
- saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri
- fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşpaz, gözətçi və iaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslər (ofisiant)
- nəqqaşlıq emalatxanalarının fəaliyyəti
- fərdi qaydada bərbər fəaliyyəti ilə məşğul olan şəxslər
- fərdi qaydada dərzi fəaliyyəti ilə məşğul olan şəxslər
- fərdi baytarlıq xidməti ilə məşğul olan fiziki şəxslər
- mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslər (digər sahələrdə işləyib məcburi dövlət sosial sığorta haqqını ödəyənlər istisna olmaqla)
- ailə kəndli təsərrüfatlarının başçıları (digər sahələrdə işləyib məcburi dövlət sosial sığorta haqqını ödəyənlər istisna olmaqla).

**BAKI — 2025**